# “Dünya hərb sənətinin Nadir şah zirvəsi” kitabı işıq üzü gördü

**AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, Dövlət Mükafatı laureatı Yaqub Mahmudov və Əməkdar elm xadimi, Dövlət Mükafatı laureatı, professor Tofiq Mustafazadənin “Dünya hərb sənətinin Nadir şah zirvəsi” kitabı çap olunub.**

“Şərq” xəbər verir ki, yeni nəşrin elmi redaktoru tarix elmləri doktoru Mehman Süleymanov, elmi məsləhətçiləri Dünya Əfşarlar Dərnəyinin başqanı Şərəf Kocakaya və Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Fuad Nurullayev, rəyçiləri ortaəsrşünas alimlər Tahirə Həsənzadə, Güntəkin Nəcəfli və İradə Məmmədova, redaktorları tarixçilər Sevinc Məlikzadə, Elnur Nəciyev və Nazim Xəlilov, dizayner və texniki redaktoru isə riyaziyyat üzrə fəlsəfə doktoru Mehri Xanbabayevadır.

Kitab 19 bölmədən - “Dünya hərb sənətinin Nadir şah zirvəsi”, “Tarixçilər və ilk mənbələr Nadir şah haqqında”, “Nadir şahın hakimiyyətə gəlməsi ərəfəsində Səfəvi dövləti”, “Dahi sərkərdənin çətin gənclik illəri və ilk hərbi uğurları”, “Hakimiyyət zirvəsinə yüksəliş”, “Dahi sərkərdə hakimiyyət başında”, “Nadir şah Əfşarın daxili siyasəti”, “Nadir şahın Qəndəharı alması”, “Nadir şahın Hindistan səfəri”, “Türküstan yürüşü”, “Nadir şahın böyük elçiliyi Rusiya sarayında: təmtəraqlı qəbul”, “Dağıstana növbəti yürüş”, “Rusiya ilə münasibətlərdə gərginlik yaranır”, “Ümumxalq narazılığının güclənməsi: mərkəzi hakimiyyətə qarşı iğtişaşlar, qiyamlar, üsyanlar”, “Osmanlı imperiyası ilə müharibələrin başa çatması”, “Nadir şahın qətlə yetirilməsi və Əfşar imperiyasının süqutu”, “Dünya tarixində Nadir şah şəxsiyyəti”, “Tariximizdə Nadir şah faciəsi, onun ağır nəticələri və ibrət dərsləri” və “Əlavələr” bölmələrindən ibarətdir.

Yaqub Mahmudov kitaba yazdığı “Dünya hərb sənətinin Nadir şah zirvəsi” adlı ön sözdə bu fikirləri bildirib: “Nadir şahı amansızlıqda, kütləvi qırğınlar törətməkdə suçlayanlar yanılırlar. Bu, həqiqət deyil! Həqiqət budur ki, Nadir şahın kütləvi qırğınlar törətməsi barədə ilk mənbələrdə heç bir məlumata rast gəlinmir. Lakin dahi sərkərdə Vətən torpağını işğalçılardan təmizləmək naminə keçirdiyi döyüşlər zamanı qorxaqlıq göstərənlərə, fərarilərə, satqınlara, mərkəzi hakimiyyətə qarşı çıxanlara, qiyamçılara qarşı amansız idi və belələrini cəzalandırırdı. Bunsuz Dərbənddən Türküstanın və Hindistanın içərilərinə, Hind okeanı sahillərinə qədər uzanıb gedən, geniş əraziləri əhatə edən böyük bir imperiyanı əldə saxlamaq mümkün idimi?!”.

Əsərdə qeyd olunur ki, Nadir şah qısa və parlaq hakimiyyəti dövründə




(1736-1747) iki böyük imperiyanı - Osmanlı və Böyük Moğol imperiyalarını məğlub edən, çar Rusiyası tərəfindən işğal olunmuş Səfəvi torpaqlarının geri qaytarılmasına nail olan, əfqan müdaxiləçilərini ölkədən qovub çıxaran və çökmüş Səfəvi imperiyasının ərazisini daha da genişləndirərək yeni bir imperiya - Azərbaycan Əfşarlar imperiyasını yaradan qüdrətli hökmdardır. Nadir şah Azərbaycan xalqının təşəkkülündə yaxından iştirak etmiş və Səfəvilər dövlətinin yaranmasında mühüm rol oynamış türk Əfşarlar tayfasının Qırxlar boyundan çıxmış, əslən Azərbaycanın Dərbənd bölgəsindən olan sadə bir kəndli oğludur. Onun mənsub olduğu döyüşkən elat Şah Abbas tərəfindən Səfəvi imperiyasının Mərkəzi Asiya sərhədlərini müdaxiləçilərdən qorumaq üçün Dərbənddən Xorasana köçürülmüşdü.

Əsərin müəllifləri bildirirlər ki, Nadir şah Əmir Teymuru özü üçün müqəddəs örnək hesab edir, Çingiz xanı tarixi şəxsiyyət kimi yüksək qiymətləndirir və çox sevirdi. Hindistanı fəth edərkən onunla eyni türk soykökünə malik olan Böyük Moğol hökmdarı Məhəmməd şahın tacını qaytarıb onun öz başına qoymuş, qızını da oğluna almışdı. Nadir şah türk-islam xalqları arasında məzhəb ayrılığına son qoymaq və Osmanlı imperiyası ilə dostluq münasibətləri yaratmaq niyyətində idi. Bu məqsədlə dahi sərkərdə görkəmli İslam üləmalarını Nəcəfə toplayaraq “Nəcəf vəsiqəsi” adlı bir sənəd də qəbul etdirmişdi. O, bütün bunlarla yanaşı, yaratdığı Azərbaycan Əfşarlar imperiyasını dünyanın qüdrətli dəniz dövlətinə çevirmək niyyətində idi. Bu məqsədlə Xəzər dənizində və imperiyanın Hind okeanına çıxışında hərbi dəniz donanması yaratmaq üçün mühüm tədbirlər gördü. Bu sahədə ciddi uğurlar da qazanıldı. Lakin hökmdarın yaxın ətrafı tərəfindən öz çadırında qətlə yetirilməsilə onun bu müdrik siyasəti də yarımçıq qaldı.

Yeni nəşrdə, həmçinin yazılır ki, tarix Nadir şah şəxsiyyətini yetişdirməsəydi, Azərbaycan dövlətçiliyinin varlığına Gülüstan (1813) və Türkmənçay (1828) faciələrindən təqribən 100 il qabaq son qoyulacaqdı. Bu qüdrətli sərkərdənin parlaq qələbələri sayəsində yadellilər Azərbaycan dövlətçiliyini məhv edə bilmədilər. Onun qətlə yetirilməsindən sonra isə dövlətçilik mədəniyyətimizi Azərbaycan xanlıqları yaşatdılar.

Şərq.- 2025.- 18 noyabr (№209).- S.6.